AZƏRBAYCAN RESPUBLİKASININ

MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ İCMAL GÖSTƏRİCİLƏRİ

***31 dekabr 2017-ci il tarixinə***

**Bakı – 2018**

## Qiymətli kağızlar bazarının ümumi icmalı

2017-ci il ərzində qiymətli kağızlar bazarında artımla yanaşı, pozitiv kəmiyyət və keyfiyyət dəyişiklikləri qeydə alınmışdır. Belə ki, 2017-ci ildə qiymətli kağızlar bazarı 2016-cı illə müqayisədə 12% artaraq 15,7 mlrd. manat təşkil etmişdir. Hesabat dövrü ərzində qiymətli kağızların təkrar bazarı 47% artaraq 7,5 mlrd. manata çatmışdır. Ümumilikdə, hesabat dövründə dövlət qiymətli kağızlar bazarı 7,3 dəfə, korporativ qiymətli kağızların təkrar bazarı isə 2,8 dəfə artmışdır.

Ümumi göstəricilər

| | 2017 | | 2016 | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,948** | **3,659,905,187** | **3,235** | **8,746,935,151** | **-58%** | **23%** |
| İlkin bazar | 167 | 2,267,877,497 | **628** | 8,248,026,100 | **-73%** | |
| Təkrar bazar | 2,781 | 1,392,027,691 | **2,607** | 498,909,051 | **2,8 dəfə** | |
| **Dövlət qiymətli kağızları** | **1,096** | **6,066,555,138** | **282** | **836,158,060** | **7,3 dəfə** | **39%** |
| İlkin bazar | 998 | 5,980,256,709 | **228** | 690,245,560 | **8,6 dəfə** | |
| Təkrar bazar | 98 | 86,298,429 | **54** | 145,912,500 | **-41%** | |
| **Törəmə maliyyə alətləri** | **83,939** | **5,940,130,521** | **45,833** | **4,440,667,091** | **34%** | **38%** |
| **Repo/əks-repo** | **51** | **51,551,163** | **2** | **2,064,764** | **25 dəfə** | **0.3%** |
| **Qiymətli kağızlar bazarı** | **88,034** | **15,718,142,010** | **49,352** | **14,025,825,065** | **12%** | **100%** |
| İlkin bazar | 1,165 | 8,248,134,206 | 835 | 8,938,271,660 | **-8%** | |
| Təkrar bazar | 86,869 | 7,470,007,804 | 48,496 | 5,087,553,406 | **47%** | |










## Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri nəticəsində korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əqdlərin məbləği 2,2 dəfə artaraq 2 mlrd. manatı üstələmişdir. Xüsusilə banklar tərəfindən kapital tələblərinin təmin edilməsi məqsədilə nizamnamə kapitallarının artırılması səhm bazarının artımını şərtləndirən mühüm amil

olmuşdur. Ümumilikdə, səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 3,3 dəfə artaraq 1,9 mlrd. manat təşkil etmişdir.

| Korporativ qiymətli kağızlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2017 | | 2016 | | məbləğ üzrə fərq | bazar payı (%) |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,948** | **3,659,905,187** | **3,235** | **8,746,935,151** | **-58%** | **100%** |
| **Səhmlər** | **2,009** | **2,031,538,583** | **2,587** | **913,023,106** | **2,2 dəfə** | **56%** |
| Səhm (ilkin bazar) | 57 | 1,871,364,639 | 133 | 563,430,807 | **3,3 dəfə** | |
| Səhm (təkrar bazar) | 1,952 | 160,173,944 | 2,454 | 349,592,299 | **-54%** | |
| **Korporativ istiqrazlar** | **939** | **1,628,366,604** | **648** | **7,833,912,045** | **-79%** | **44%** |
| İlkin bazar (manatla) | 77 | 269,845,132 | 24 | 7,501,840,000 | **-96%** | |
| İlkin bazar (xarici valyutada) | 33 | 126,667,725 | 471 | 182,755,293 | **-31%** | |
| Təkrar bazar (manatla) | 70 | 916,697,584 | 40 | 73,680,788 | **12,4 dəfə** | |
| Təkrar bazar (xarici valyutada) | 759 | 315,156,163 | 113 | 75,635,964 | **4,2 dəfə** | |










Korporativ qiymətli kağızlar bazarının digər seqmenti olan korporativ istiqrazlar bazarı ötən illə müqayisədə 79% azalaraq 1,6 mlrd. manat təşkil etmişdir. Bunun səbəbi 2017 ildə dövlət əhəmiyyətli layihələrin yerli qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşməsinin cari ildə təmin edilməməsidir. Dövr ərzində korporativ istiqrazların ilkin bazarı azalsa da, təkrar bazarda əqdlərin məbləğində artım müşahidə edilmişdir. Yerli valyutada buraxılmış korporativ istiqrazların təkrar bazarında əməliyyatların həcmi 12,4 dəfə artaraq 917 mln. manat, xarici valyutada olan korporativ istiqrazların həcmi isə 4,2 dəfə artaraq 315 mln. manat təşkil etmişdir.

## Dövlət qiymətli kağızları

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən daxildən borclanma siyasətinin həyata keçirilməsi, eləcə də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən milli valyutaya olan təzyiqlərin azaldılması məqsədilə not buraxılışları dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin

artım dinamikasını müəyyən etmişdir. Belə ki, dövlət istiqrazları bazarı 48%, not bazarı isə 19,4 dəfə artmışdır.

| Dövlət qiymətli kağızları | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | | 2016 | | məbləğ üzrə fərq | bazar payı (%) |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **1,096** | **6,066,555,138** | **282** | **836,158,060** | **7,3 dəfə** | **100%** |
| **Dövlət istiqrazları** | **487** | **839,418,428** | **261** | **567,402,693** | **48%** | **14%** |
| İlkin bazar* | 396 | 794,518,615 | 207 | 421,490,193 | **89%** | |
| Təkrar bazar | 91 | 44,899,814 | 54 | 145,912,500 | **-69%** | |
| **Mərkəzi Bankın notları** | **609** | **5,227,136,710** | **21** | **268,755,367** | **19,4 dəfə** | **86%** |
| İlkin bazar** | 602 | 5,185,738,095 | 21 | 268,755,367 | **19,3 dəfə** | |
| Təkrar bazar | 7 | 41,398,615 | 0 | 0 | | 0 |

* Dövlət istiqrazları üzrə yerləşdirilmiş nominal həcm – 849,816,900 manat

** Notlar üzrə yerləşdirilmiş nominal həcm – 5,384,071,600 manat




Hesabat dövründə Mərkəzi Bankın notlarının yerləşdirilməsi üzrə fond birjasında 50 hərrac keçirilmiş və nəticədə ilkin bazarda əqdlərin həcmi ötən illə müqayisədə 19,3 dəfə artaraq 5,2 mlrd. manat olmuşdur. Notların təkrar bazarında 2016-cı ildə əməliyyat aparılmamış, lakin hesabat dövründə bazarın həcmi 41 mln. manat təşkil etmişdir. Hərraclarda notlarla bağlanmış əqlər üzrə orta çəkili gəlirlilik 10,89% olmuşdur.

Hesabat dövründə dövlət istiqrazlarının yerləşdirilməsi üzrə fond birjasında 45 hərrac keçirilmiş və nəticədə ilkin bazarda əqdlərin həcmi ötən illə müqayisədə 89% artaraq 795 mln. manat təşkil etmişdir. Dövlət istiqrazlarının təkrar bazarı hesabat dövründə 69% azalaraq 45 mln. manat olmuşdur. Dövr ərzində manatla yerləşdirilmiş qısamüddətli dövlət istiqrazları ilə bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 10,15%, ortamüddətli dövlət istiqrazları ilə bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 13,08% olmuşdur.

# Törəmə maliyyə alətləri bazarı

Hesabat dövründə Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 5,5 mlrd. manat olan valyuta əsaslı və ümumi dəyəri 402 mln. manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 5,9 mlrd. manat olmuş və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 33,8% artım müşahidə edilmişdir.

Törəmə maliyyə alətləri bazarı

| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Törəmə maliyyə alətləri** | **83,939** | **5,940,130,521** | **45,833** | **4,440,667,091** | **33.8%** | **100%** |
| Əmtəə əsaslı fərq müq. | 8,430 | 402,103,539 | 5,661 | 272,094,473 | **47.8%** | 7% |
| Valyuta əsaslı fərq müq. | 75,509 | 5,538,026,981 | 40,172 | 4,168,572,618 | **32.9%** | 93% |







# Repo və əks-repo əməliyyatları

Hesabat dövrü ərzində repo əməliyyatlarının ümumi məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 dəfə artaraq 51,5 mln. manat olmuşdur. Dövlət istiqrazları ilə ümumi məbləği 30.8 mln. manat olan 37 repo əməliyyatı keçirilmişdir ki, bu da ötən illə müqayisədə 15 dəfə çoxdur. Korporativ istiqrazlarla repo əməliyyatlarının məbləği 20,8 mln. manat təşkil etmişdir.

Repo və əks-repo əməliyyatları

| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **51** | **51,551,163** | **2** | **2,064,764** | **25 dəfə** | **100%** |
| Korporativ istiqrazlarla repo | 14 | 20,756,310 | **0** | **0** | | 40% |
| Dövlət istiqrazları ilə repo | 37 | 30,794,853 | **2** | **2,064,764** | **15 dəfə** | 60% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | **0** | **0** | | 0% |

# Qiymətli kağızların dövlət qeydiyyatı

2017-ci ildə 11,5 mlrd. manat və 4,1 mlrd. ABŞ dolları məbləğində qiymətli kağızların dövlət qeydiyyatı həyata keçirilmişdir.

**Səhmlər üzrə:** Hesabat dövrü ərzində ümumi məbləği 2,5 mlrd. manat olan 60 səhm buraxılışı dövlət qeydiyyatına alınmışıdır. Bunlardan 1,3 mlrd. manatı kredit təşkilatları, 55 milyon manatı sığorta şirkətləri, 1,2 mlrd. manatı isə digər təşkilatlara məxsus olmuşdur.

| Emitentlər | Qeydiyyatın sayı | Məbləğ (mln. AZN) |
|---|---|---|
| Kredit təşkilatları | 18 | 1 280 |
| Sığorta şirkətləri | 2 | 55 |
| Digər təşkilatlar | 40 | 1 200 |
| **Cəmi** | **60** | **2 535** |

**Korporativ istiqrazlar üzrə:** Hesabat dövründə manatla 298 mln. məbləğində korporativ istiqraz dövlət qeydiyyatına alınmış, bunun 4 mln. manatı kredit təşkilatlarına, 294 mln. manatı isə digər təşkilatlara məxsus olmuşdur. Həmçinin, hesabat dövründə 1,061 mln. ABŞ dolları məbləğində qeydiyyata alınmış korporativ istiqrazların 1,012 mln. dolları kredit təşkilatlarına, 49 mln. dolları isə digər təşkilatlara məxsus olmuşdur. Bundan əlavə, kredit təşkilatlarına məxsus 349 min avro məbləğində bir korporativ istiqraz buraxılışının dövlət qeydiyyatı həyata keçirilmişdir.

**Dövlət qiymətli kağızları üzrə:** Hesabat dövrü ərzində ümumilikdə 7 mlrd. manata yaxın məbləğdə dövlət qiymətli kağızları qeydiyyata alınmışdır. Dövr ərzində Maliyyə Nazirliyinin ümumi məbləği 900 mln. manat olan dövlət istiqrazları və Mərkəzi Bankın ümumi məbləği 6,1 mlrd. manat olan notları dövlət qeydiyyatına alınmışdır.

| Emitentlər | Qeydiyyatın sayı | Məbləğ (mln. AZN) |
|---|---|---|
| Dövlət istiqrazları | 4 | 900 |
| Mərkəzi Bankının notları | 50 | 6 085 |
| **Cəmi** | **54** | **6 985** |

**Veksel üzrə:** Hesabat dövründə 3,1 mlrd. ABŞ dolları və 1,7 mlrd. manat məbləğində ümumilikdə 20 veksel buraxılışı dövlət qeydiyyatına alınmışdır.